# Üçtərəfli görüşdə sülhdən söhbət getməyəcək

## Məqsəd Qafqazı "qaynar qazan"a çevirməkdir

**Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmağa doğru getdiyi, sülh istiqamətində irəliləyiş olduğu bir vaxtda Qərbin və ABŞ-nin təhriki ilə Ermənistanın şərti sərhəddə fəallaşdığı müşahidə olunur. Yenidən silahlandırılan Hayastanın sərhəddə hərbi texnika və hərbçiləri cəmləşdirməsi növbəti təxribatlardan xəbər verir.**



Cənubi Qafqazda Rusiyaya qarşı ikinci cəbhənin açılmasında yardımçı olan Ermənistana verilən vəd də elə onun silahlandırılmasından və Azərbaycana qarşı yeni münaqişədə ona dəstək olmaqdan ibarətdir.

Bütün bunlar göstərir ki, Avropa İttifaqı və ABŞ-nin Cənubi Qafqaz regionu ilə bağlı "sülh" çağırışları gözdən pərdə asmaqdan başqa bir şey deyil.

Milli Məclisin deputatı Sahib Alıyev "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller aprelin 5-də Brüsseldə Ermənistanın baş naziri ilə keçiriləcək görüşdə regional məsələlərə toxunulmayacağını və orada "Bakı ilə İrəvan arasında sülh prosesindən söhbət getməyəcəyini" bildirib.

Deputat qeyd edib ki, M.Millerin Blinken-Ursula fon der Lyayen-Paşinyan görüşündə guya regionda baş verənlərə toxunulmayacağı haqda dedikləri ancaq 1 aprel zarafatı ola bilər: "Amma dediyi digər fikirlə razılaşıram. Bəli, həmən görüşdə doğrudan da sülhdən söhbət getməyəcək, çünki o əks məqsədlə, yəni ayırıcı xətlər çəkmək, Qafqazı "qaynar qazan"a çevirmək üçün keçirilir. Ermənistan silahlı qüvvələrinin sözügedən görüş öncəsi Şərqi Zəngəzuru, eləcə də Naxçıvanla şərti sərhəddəki mövqelərimizi atəşə tutması, təmas xətti boyunca qüvvə cəmləşdirməsi məhz gələcək toqquşmalarda Qərbin dəstəyini təmin etmək məqsədi daşıyır".

S.Alıyev vurğulayıb ki, qarşı tərəf əvvəlki təxribatları, bəlli bir həddi keçəndən sonra Azərbaycandan aldıqları cavabları çətin ki, unutsun. Görünür, yenə də Azərbaycanı oxşar addımlar atmağa vadar etməyə çalışırlar ki, Brüssel görüşündə havadarlarının Ermənistana genişmiqyaslı hərbi dəstəkləri üçün əldə bəhanə olsun. Yeri gəlmişkən, bu təxribatların ABŞ-nin hərbi təlimatçılarının Ermənistanda peyda olduqları zamanda baş verməsinin özü də az şey demir. "Beləliklə, soruşmaq olar ki, əgər Qərbdəkilərin məqsədi dedikləri kimi burada dayanıqlı və davamlı sülhün əldə edilməsidirsə, onda Azərbaycanla Ermənistan ona heç vaxt olmadığı qədər yaxınkən regionda ayırıcı xətlər niyə çəkilir, qarşı tərəf nə üçün revanşizmə sürüklənir?", - deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 3 aprel, № 68.- S.6.